**Azərbaycan Milli Kitabxanası və**
**Qazaxıstan Respublikasının Milli Kitabxanası**
**arasında əməkdaşlıq barədə**
**Müqavilə**

**8 noyabr 2013-cü il**

**Almatı şəhəri**

**Azərbaycan Milli Kitabxanası (direktor Kərim Məhəmməd oğlu Tahirov tərəfindən təmsil olunacaq) və Qazaxıstan Respublikasının Milli Kitabxanası (baş direktor Qulisa Kabarovna Balabekova tərəfindən təmsil olunacaq) əməkdaşlıq barəsində Müqavilə bağlayırlar:**

## 1. Ümumi müddəalar

1.1. Hazırkı müqavilənin məqsədi – Azərbaycan Respublikası və Qazaxıstan Respublikasının vahid informasiya məkanının yaranması və dəstəklənməsi üçün kitabxana işi, elm və mədəniyyətin inkişafı sahəsində milli kitabxanaların potensialından hərtərəfli istifadə edilməsidir.

1.2. Müqavilə hər iki kitabxananın əməkdaşlıqda bərabərliyinə, qarşılıqlı informasiyalaşdırmaya və açıqlığa, hər bir ölkənin hüququna, adət-ənənə və xüsusiyyətlərinə hörmətlə yanaşmağa əsaslanır.

1.3. Müqavilə Azərbaycan və Qazaxıstan Respublikalarının hüquqi normalarına uyğun olaraq kitabxanaların qarşılıqlı fəaliyyətinin təşkilinə dair ümumi məsələləri tənzimləyir.

Müqavilə aşağıdakılar vasitəsilə həyata keçir:

1. Məqsədyönlü və digər proqramların işlənməsində tərəflərin birgə iştirakı, illik və uzunmüddətli planların razılaşdırılması; kitabxanaların qarşılıqlı fəaliyyətinə dair hesabatların və başqa sənədlərin təqdim edilməsi;
2. Birgə tədbirlərin keçirilməsi, qarşılıqlı maraq yaradan problemlərin müzakirəsi;
3. Hazırki müqavilə kitabxanaların fəaliyyətinin əlaqələndirilməsi, digər kitabxanalar, idarə və müəssisələr, təşkilatlar ilə müqavilələr bağlamaq üçün maneə ola bilməz. Bu Azərbaycan və Qazaxıstan Respublikası kimi xarici ölkə təşkilatlarına da aiddir.

## 2. Əməkdaşlığın əsas istiqamətləri

2.1. Oxucu sorğularının ödənilməsi məqsədilə Azərbaycan və Qazaxıstan Respublikalarının Milli Kitabxanaları çap və elektron sənədlərin və başqa

materialların komplektləşdirilməsində daim qarşılıqlı kömək göstərmək barədə razılaşırlar.
*2.2.Fondlardakı mövcud boşluqları tamamlamaq məqsədilə bir kitabxananın* fondunda çatışmayan sənədlərin siyahılarının, sənədlər və onların surətlərinin digər kitabxana ilə mübadiləsi həyata keçirilir.

2.3. Hər iki Tərəfin oxucu sorğularına əsasən, kitab mübadiləsi və çap məhsullarının elektron surətlərinin mübadiləsi proqramını işləyib hazırlayırlar.

2.4. Tərəflər birgə tədqiqat, nəşriyyat və başqa layihələrin həyata keçirilməsi məqsədilə təkliflər hazırlayıb irəli sürəcəklər.

**3. Fasiləsiz peşə təhsili sahəsində Azərbaycan Milli Kitabxanası və Qazaxıstan Respublikasının Milli Kitabxanası birgə səylərlə:**

3.1.Kitabxana işi sahəsindəki yeni metodları və texnologiyaları mənimsəmək üçün proqramların hazırlanması:
- mütəxəssislərin qarşılıqlı mübadiləsi;
- treninq, stajorluq, seminar və konfransların keçirilməsi istiqamətində aparılır.

3.2. Videokonfranslardan, vebinarlardan, peşəkar çatlardan, göndəriş vərəqələrindən, forumlardan istifadə etməklə virtual məkanın yaranması üzərində çalışırlar.

**4. Elmi-tədqiqat, elmi-metodik və elmi-təşkilati fəaliyyətdə Azərbaycan Milli Kitabxanası və Qazaxıstan Respublikasının Milli Kitabxanasının birgə səyləri ilə:**

4.1. Sərbəst elmi-tədqiqatların nəticələri barədə, qarşılıqlı marağa səbəb olan kitabxanaşünaslıq məsələləri üzrə materiallar və dövlət layihələri haqqında informasiya mübadiləsi həyata keçirir.

4.2. Tərəflər əməkdaşlıq nəticəsində birgə nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar hazırlaya, ictimaiyyəti internet vasitəsilə məlumatlandıra bilərlər.

**5. Müqavilə fəaliyyətinin müddəti**

5.1. Hazırkı Müqavilə 5 il müddətinə bağlanır. Hər bir Tərəfin o biri Tərəfə ən azı 3 ay qabaqcadan xəbər vermək şərtilə həmin müqaviləni ləğv etmək hüququ var. Əgər müqaviləni ləğv etmək üçün ərizə daxil olmayıbsa, həmin müqavilənin müddəti mexaniki olaraq 5 il müddətinə uzadılır.

5.2. Cari müqaviləyə dəyişiklik və əlavələr hər iki Tərəfin yazılı razılaşmasına əsasən edilir.

5.3. Müqavilə Azərbaycan, qazax və rus dillərində, hər biri iki nüsxədə tərtib olunub, hər Tərəfə təqdim edilir. Bütün nüsxələr eynidir və bərabər hüquqi qüvvəyə malikdir.

Müqavilə iki Tərəfin imzalandığı andan qüvvəyə minir.

**Tərəflərin ünvanları və rekvizitləri:**

Azərbaycan Milli Kitabxanası
AZ1000, Bakı şəh., Azərbaycan
Xaqani, küç., 29
tel. + 99412 493-40-03
faks: +99412 498-08-22
E-mail: contact@anl.az

Qazaxıstan Respublikasının Milli Kitabxanası
050013, Almatı şəh., Qazaxıstan
Abay pr.,14
tel./faks: + (727) 267 28 83
E-mail: intrel@nlrk.kz

Direktor

**K.M.Tahirov**

Baş direktor

**Q.K.Balabekova**